*UOT 159.9*

# AĞARƏHİM RƏHİMOVUN HEKAYƏLƏRİNDƏ AİLƏ TƏRBİYƏSİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

**Nərgiz Vüqar qızı Yeliyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-4489-6705
**E-mail:** nergizyeliyeva4@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2026.v27.i2.29

***Açar sözlər:*** *ailə, dəyərlər, tərbiyə, ailədaxili konfliktlər, yazıçı, davranış motivləri*
***Ключевые слова:*** *семья, ценности, образование, внутрисемейные конфликты, писатель, поведенческие мотивы*
***Key words:*** *family, values, nurture, intra-family conflicts, writer, behavioral motives*

Ailə tərbiyəsi cəmiyyətin mənəvi inkişafında həlledici rol oynayan əsas amillərdən biridir. Çünki şəxsiyyətin ilkin formalaşma mərhələsi məhz ailə mühitində baş verir və uşağın dünyagörüşü, əxlaq normaları, davranış stereotipləri, ünsiyyət mədəniyyəti, sosial münasibətlərə yanaşması ilk növbədə valideynlərin mövqeyi və davranış modeli vasitəsilə müəyyənləşir. Bu baxımdan ailədə aparılan tərbiyə-təlim işlərinin səmərəliliyinə nail olmaq, gələcəkdə cəmiyyət üçün faydalı vətəndaş yetişdirmək məqsədilə valideynlərin pedaqoji mərifətə yiyələnməsi mühüm şərt kimi çıxış edir. Pedaqoji mərifət valideynə yalnız uşağa nəzarət etməyi deyil, onun ruhi aləminə nüfuz etməyi, psixoloji xüsusiyyətlərini düzgün anlamağı, ehtiyaclarını və duyğularını nəzərə alaraq ünsiyyət qurmağı öyrədir. Çünki uşağa münasibətdə yalnız sərtlik və tələbkarlıq deyil, eyni zamanda həssaslıq, anlayış və psixoloji incəlik də tərbiyənin ayrılmaz hissəsidir.

Uşaqla elə danışmaq lazımdır ki, ata və ya ananın sözləri onun qəlbini sıxmasın, ruhunu sarsıtmasın, özünəinamını məhv etməsin. Ailə tərbiyəsində kobud söz, təhqir və zorakılıq uşağın psixoloji dünyasında dərin iz buraxır və bu izlər gələcəkdə şəxsiyyətin disharmonik inkişafına gətirib çıxara bilir. Bu kontekstdə Əbül Həsən Bəhmənyarın "qarşımıza çıxan iki şeydən biri səbəb, digəri nəticədir" fikri ailə tərbiyəsinin mahiyyətini izah etmək üçün olduqca yerinə düşür. Çünki ailədə səslənən hər bir söz, göstərilən hər bir davranış tərbiyəvi səbəb rolunu oynayır və bu səbəb gec-tez nəticə şəklində uşağın davranışında, xarakterində, həyat mövqeyində özünü göstərir. Valideynin sərtliyi və kobudluğu uşağın iç dünyasında qorxu, qapanıqlıq, aqressiya və ya itaətkarlıq kimi müxtəlif nəticələr doğura bilər. Bu səbəb-nəticə əlaqəsi ailə tərbiyəsinin elmi mahiyyətini daha aydın şəkildə göstərir.

Kiçik yaşlı uşaqların tez küsəyən və həssas olması psixoloji reallıqdır. Lakin bəzi ailələrdə uşaqlara qarşı kobud rəftar, qışqırmaq və hətta fiziki zorakılıq hallarına rast gəlinməsi ciddi pedaqoji və sosial problem kimi qiymətləndirilməlidir. Bu hal təkcə pedaqoqları deyil, eyni zamanda həkim-psixiatrları da narahat edir. Psixiatriyada didaktogeniya anlayışı məhz valideyn və müəllimlərin kobud sözləri, yanlış münasibəti nəticəsində yaranan psixoloji zədələnmə kimi izah olunur. Prof. F.Q. Uqlovun kobud sözün insanın sinir sisteminə, ürək-damar fəaliyyətinə və ümumilikdə orqanizmə mənfi təsiri haqqında fikirləri göstərir ki, ailədə sərt söz və təhqir

yalnız emosional narahatlıq yaratmır, həm də fizioloji reaksiyalara səbəb olur. Deməli, ailə tərbiyəsində nitq mədəniyyəti, ünsiyyət etikası və emosional nəzarət təkcə mənəvi deyil, eyni zamanda psixofizioloji sağlamlıq məsələsi kimi çıxış edir.

Bu pedaqoji və psixoloji reallıqlar Ağarəhim Rəhimovun hekayələrində bədii təhlil predmetinə çevrilir. Yazıçının hekayələrində ailə tərbiyəsi yalnız məişət problemi kimi deyil, cəmiyyətin gələcəyini müəyyən edən mənəvi-sosial mexanizm kimi təqdim olunur. Müəllif uşaqların davranış xüsusiyyətlərini, onların nadincliyini, psixoloji ehtiyaclarını və ailə münasibətlərindəki ziddiyyətləri təsvir etməklə valideyn məsuliyyətini ön plana çəkir.

"Balaca Nicat" hekayəsi bu baxımdan xüsusilə diqqətəlayiqdir. Nicat nadinc uşaq kimi təqdim edilsə də, onun daxili dünyasında xeyirxahlıq və yardımsevərlik kimi yüksək mənəvi keyfiyyətlər mövcuddur. O, davranışları ilə daim narazılıq doğurur, hətta "yalançı" damğası alır. Lakin yazıçı göstərir ki, bu nadincliyin arxasında uşağın təmiz qəlbi və sosial həssaslığı dayanır. Nicatın dostlarına armud aparması, onların ala bilmədiyi bir şeyi paylaşmaq istəyi onun daxilində mərhəmət hissinin güclü olduğunu sübut edir. Nicatın anasının dediyi "Vallah, pis uşaq deyil... Ürəyi açıqdı. Qəlbi təmizdi... Hamıya özü kimi baxır... Xəstədi. Desək də, sözümüzə 'hə', 'hə' deyəcək, sonra öz bildiyini edəcək" (2, s.478) fikri ailənin uşağı yalnız "nadinc" kimi damğalamasının yanlış olduğunu göstərir. Burada ana obrazı övladını müdafiə etsə də, eyni zamanda onun davranışını tərbiyə etməyin çətinliyini etiraf edir. Bu isə bir daha sübut edir ki, nadinclik hər zaman pislik və mənəvi pozuntu deyil, bəzən uşağın psixoloji enerjisinin düzgün istiqamətə yönəldilməməsinin nəticəsidir. Yazıçının yanaşmasında əsas ideya ondan ibarətdir ki, tərbiyə uşağın xarakterini sındırmaq deyil, onun müsbət keyfiyyətlərini inkişaf etdirmək və mənfi davranışını düzgün metodlarla tənzimləməkdir.

Müəllifin "Atamın səhvi", "Dəvə dərisi" kimi hekayələrində də nadinc uşaq həyatına toxunması təsadüfi deyildir. Bu əsərlərdə ailədə ata obrazının məsuliyyəti, valideyn davranışının uşağın psixologiyasına təsiri və ailə mühitində yol verilən səhvlərin sonrakı nəticələri bədii şəkildə açılır. Yazıçı belə nümunələrlə göstərir ki, valideynin yanlış addımı uşağın həyatında "kiçik səhv" kimi qalmır, əksinə, onun gələcək xarakterini müəyyənləşdirən əsas amilə çevrilir. Bu isə ailə tərbiyəsinin nə qədər diqqət tələb edən məsuliyyətli proses olduğunu bir daha sübut edir.

Valideynin övladı ilə uşaqlıq və yeniyetməlik dövründə daha çox vaxt keçirməsi, onunla ünsiyyət qurması, problemlərinə biganə qalmaması tərbiyə işində mühüm nəticələr verir. Əksinə, uşaqlara qarşı diqqətsizlik, qayğısızlıq və kobudluq acı nəticələr doğurur. Valideynlər arasındakı mübahisə, ailədaxili söz-söhbətlər uşağın uşaqlıq sevincini əlindən alır, onun emosional sabitliyini pozur və ailəyə olan inamını zəiflədir. Belə hallarda ailə uşağın inkişafı üçün təhlükəsiz mühit olmaqdan çıxır, stress məkanına çevrilir.

Ailə tərbiyəsi yalnız uşağın kiçik yaş dövründə davranışına nəzarət etmək, ona müəyyən qaydalar öyrətmək və gündəlik ehtiyaclarını təmin etmək demək deyildir. Əslində ailə tərbiyəsinin əsas məqsədi uşağın şəxsiyyət kimi formalaşmasına, mənəvi dəyərləri mənimsəməsinə, valideynə hörmət və minnətdarlıq hissinin inkişafına nail olmaqdır. Ailə tərbiyəsinin ən mühüm istiqamətlərindən biri də nəsillərarası münasibətlərin düzgün qurulmasıdır. Bu münasibətlər ailənin daxili mənəvi bütövlüyünü qoruyur, insanı məsuliyyətə, qayğıya və empatiyaya yönəldir. Ağarəhim Rəhimovun "Nəvə dərsi" hekayəsi məhz bu istiqamətdə ailə tərbiyəsinin əhəmiyyətini açan, nəsillərarası əlaqələrin mənəvi-psixoloji mahiyyətini üzə çıxaran təsirli bədii nümunədir.

Hekayədə baba və nəvə arasında qurulan dialoq sadəcə ailədaxili söhbət kimi deyil, tərbiyə prosesinin canlı modeli kimi təqdim olunur. Bu dialoq vasitəsilə müəllif ailə tərbiyəsinin necə həyata keçirildiyini, böyüklərin uşaqlara yalnız sözlə deyil, həyat təcrübəsi və mənəvi örnək yolu ilə dərs verdiyini göstərir. Baba nəvəsinə həyat həqiqətlərini atalar sözləri vasitəsilə çatdırmağa çalışır. Onun dilindən səslənən "Nə tökərsən aşına, o da çıxar qaşığına" (2, s.297) fikri tərbiyəvi məzmun daşıyan dərin mənalı bir ifadədir. Bu atalar sözü insanın həyata münasibətinin, ailədə göstərdiyi davranışın və etdiyi əməllərin gec-tez özünə qayıdacağını bildirir. Baba bu fikirlə nəvəyə həm həyat dərsi verir, həm də ailədə münasibətlərin qarşılıqlı məsuliyyət üzərində qurulduğunu anlatmağa çalışır.

Lakin hekayədə diqqət çəkən əsas məqam nəvənin babanın dediyi atalar sözünə cavab olaraq "Nə əkərsən, onu da biçərsən" (2, s.297) məsəlini söyləməsidir. Bu cavab dialoqu daha da dərinləşdirir və hekayənin ideya xəttini gücləndirir. Çünki nəvə tərəfindən verilən bu cavab təkcə təsadüfi bir məsəldə deyil, artıq uşağın ailə tərbiyəsi nəticəsində müəyyən mənəvi biliklərə sahib olduğunu göstərir. Eyni zamanda bu cavab baba üçün "dərs" xarakteri daşıyır. Burada müəllif bir növ göstərir ki, tərbiyə prosesi yalnız böyüyün kiçiyə təsiri ilə məhdudlaşmır; bəzən uşağın sözləri də böyüyün düşüncəsini oyadır, onu keçmişi və indiki vəziyyəti yenidən dəyərləndirməyə vadar edir.

"Nəvə dərsi" hekayəsində əsas ideya ailədə valideynə və yaşlı nəslə qayğının tərbiyənin ayrılmaz hissəsi olmasıdır. Baba nəvəyə ailə həyatının mənəvi əsaslarını izah edərkən vurğulayır ki, valideynin zəhməti unudulmamalıdır. Uşaq böyüdükcə, həyatın qayğıları artdıqca bir çox insanlar valideynlərin və babaların çəkdiyi əziyyəti unutmağa başlayır, onların yaşlandıqdan sonra diqqətə ehtiyacı olduğunu nəzərə almırlar. Bu məsələ hekayədə babanın daxili kədəri və incikliyi fonunda verilir. Baba üçün əsas ağrı fiziki qocalıq yox, mənəvi tənha qalmaqdır. O, övladlarının böyüyəndə uşaqlıq dövrünü unutmasını, ata-ana qayğısının dəyərini bilməməsini acı bir həqiqət kimi qəbul edir.

Əsərdə babanın kədəri ailə tərbiyəsinin zəifləməsi problemini ortaya qoyur. Çünki uşağa yalnız təhsil vermək, onu təmin etmək kifayət etmir; əsas məsələ ona mənəvi borc hissini aşılamaqdır. Ailə tərbiyəsi uşağa öyrətməlidir ki, valideynin əməyi müqəddəsdir və bu əməyi qiymətləndirmək insanlıq borcudur. Valideynlər övladını böyütmək üçün öz həyatından, sağlamlığından, arzularından keçir, lakin bəzi övladlar böyüdükdən sonra bu zəhməti unutmaqla həm ailə bağlarını zəiflədir, həm də mənəvi deqradasiyaya uğrayır. Baba obrazı bu mənəvi boşluğun simvoluna çevrilir.

Hekayənin ideya mahiyyəti ondan ibarətdir ki, ailə tərbiyəsi yalnız uşağın uşaqlıq dövrü üçün nəzərdə tutulmuş qaydalar sistemi deyil, bütövlükdə insanın həyat boyu daşımalı olduğu mənəvi davranış modelidir. Nəvəyə verilən dərs əslində gələcək üçün mesajdır: insan bu gün valideyninə necə münasibət göstərirsə, sabah özü də övladından eyni münasibəti görəcək. Bu baxımdan babanın dediyi atalar sözü və nəvənin cavabı ailə tərbiyəsinin fəlsəfi əsasını ifadə edir. Hər iki məsəlin məzmunu bir həqiqəti təsdiqləyir: insanın davranışı onun taleyini müəyyən edir və ailə münasibətlərində göstərilən münasibət gec-tez öz əksini tapır.

"Nəvə dərsi" hekayəsində tərbiyənin bir mühüm tərəfi də yaşlı nəslin ailədə nüfuz daşıyıcısı olmasıdır. Baba burada yalnız qoca bir insan deyil, ailə yaddaşının və mənəvi dəyərlərin qoruyucusu kimi çıxış edir. O, nəvəsinə ailə haqqında danışmaqla yalnız bir şəxsi fikir bildirmir, həm də nəsillərarası mənəvi ənənəni ötürür. Bu, ailə tərbiyəsinin əsas mexanizmlərindən biridir:

ailə dəyərləri nəsildən-nəslə ötürülərək yaşadılır. Əgər bu əlaqə qırılarsa, ailə institutunun bütövlüyü pozular, cəmiyyətin mənəvi dayaqları zəifləyər.

Beləliklə, Ağarəhim Rəhimovun "Nəvə dərsi" hekayəsi ailə tərbiyəsinin nəsillərarası münasibətlərə təsirini, valideyn əməyinin qiymətləndirilməsinin zəruriliyini və qocalara qayğının mənəvi borc olduğunu bədii şəkildə təqdim edir. Hekayə sübut edir ki, ailə tərbiyəsinin əsas məqsədi təkcə övladı böyütmək deyil, onu insan kimi yetişdirmək, ona vicdan, məsuliyyət və minnətdarlıq hissini aşılamaqdır. Baba və nəvə dialoqu isə bu tərbiyə prosesinin canlı ifadəsi kimi çıxış edir və oxucuya belə bir nəticə təqdim edir: valideynə qayğı göstərmək təkcə ailə borcu deyil, həm də insanın mənəvi yetkinliyinin göstəricisidir.

**Problemin aktuallığı.** Müasir cəmiyyətin sosial-mənəvi inkişafında ailə institutu aparıcı rol oynamaqda davam edir. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı, sosial münasibətlərin transformasiyası və ailədaxili ünsiyyətin zəifləməsi fonunda uşaqların psixoloji inkişafı və tərbiyəsi daha həssas məsələyə çevrilmişdir. Bu baxımdan ailə tərbiyəsinin psixoloji aspektlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Ağarəhim Rəhimovun hekayələri ailədaxili münasibətlərin, valideyn davranışının və uşağın psixoloji dünyasının incə məqamlarını bədii formada əks etdirdiyi üçün bu mövzunun tədqiqi həm pedaqoji, həm də psixoloji baxımdan əhəmiyyətlidir.

**Problemin elmi yeniliyi.** Ağarəhim Rəhimovun hekayələri ilk dəfə olaraq sistemli şəkildə ailə tərbiyəsinin psixoloji aspektləri kontekstində təhlil edilir. Əsərlərdəki obrazlar və hadisələr yalnız ədəbi baxımdan deyil, eyni zamanda psixoloji-pedaqoji yanaşma əsasında şərh olunur, ünsiyyət etikası, valideyn davranış modeli kimi anlayışlar bədii material üzərində əsaslandırılır. Həmçinin tədqiqatda səbəb-nəticə əlaqəsi prizmasından ailə tərbiyəsinin uşağın xarakterinin formalaşmasına təsiri konkret nümunələrlə izah edilir. Bu yanaşma ədəbiyyat və psixologiya elmlərinin inteqrasiyası baxımından yeni elmi istiqamət kimi çıxış edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Əldə olunan nəticələr valideynlər, müəllimlər və pedaqoqlar üçün metodik tövsiyə xarakteri daşıyır. Araşdırmada ailə tərbiyəsində düzgün ünsiyyətin qurulması, uşağın psixoloji xüsusiyyətlərinin nəzərə alınması, kobud davranışın qarşısının alınması və müsbət keyfiyyətlərin inkişaf etdirilməsi yolları müəyyənləşdirilir. Eyni zamanda tədqiqat materialları ali və orta ixtisas təhsil müəssisələrində pedaqogika və psixologiya fənlərinin tədrisində əlavə vəsait kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Akif Abbasov, A.N., Məmmədli, L.A. Ailə dəyərləri: Dərslik. -Bakı, -Mütərcim, 2023.
2. Rəhimov A.N. Əsərlər. 10 cilddə I cild (hekayələr). Bakı:" BQU" nəşriyyatı, 2008.
3. Rəhimov A.N. Səfalət. Roman. Bakı: BAPQS, 2004.
4.https://www.scribd.com/document/574207651/C%C9%99l%C9%99biyev-Ail%C9%99-Psixologiyas%C4%B1-KI

**N.V. Yeliyeva**

**Ağarəhim Rəhimovun hekayələrində ailə tərbiyəsinin psixoloji aspektləri**
**Xülasə**

Ağarəhim Rəhimovun hekayələri əsasında ailə tərbiyəsinin psixoloji aspektləri təhlil olunur. Şəxsiyyətin formalaşmasında ailə mühitinin həlledici rolu vurğulanır, uşağın davranışı, dünyagörüşü və emosional vəziyyətinin valideyn münasibəti ilə sıx bağlı olduğu göstərilir. "Balaca Nicat", "Atamın səhvi", "Dəvə dərisi" və "Nəvə dərsi" hekayələri əsasında valideyn davranışının səbəb-nəticə əlaqəsi fonunda uşağın xarakterinə təsiri açıqlanır.

**Н.В. Елиева**

**Психологические аспекты семейного воспитания в рассказах**
**Агарахима Рахимов**
**Резюме**

На основе рассказов Агарахима Рахимова анализируются психологические аспекты семейного воспитания. Подчеркивается решающая роль семейной среды в формировании личности и показывается тесная связь поведения, мировоззрения и эмоционального состояния ребенка с отношениями с родителями. На основе рассказов «Маленький Ниджат», «Ошибка моего отца», «Верблюжья шкура» и «Урок внука» объясняется влияние поведения родителей на характер ребенка на фоне причинно-следственной связи.

**N.V. Yeliyeva**

**Psychological aspects of family upbringing in the stories of**
**Agarahim Rahimov**
**Summary**

Based on the stories of Agarahim Rahimov, the psychological aspects of family upbringing are analyzed. The decisive role of the family environment in the formation of personality is emphasized, and it is shown that the behavior, worldview and emotional state of the child are closely related to the parental relationship. Based on the stories "Little Nijat", "My Father's Mistake", "Camel's Skin" and "Grandson's Lesson", the impact of parental behavior on the child's character is explained against the background of a cause-and-effect relationship.

**Redaksiyaya daxil olub:** 09.04.2026